

Əlirza Balayev

# VAŞİNQTONDA AZƏRBAYCAN SƏFİRLİYİNİN AÇILIŞINDA, NYU-YORKDA TÜRK GÜNÜ YÜRÜŞÜNDƏ

*Həyatın hər üzü" adlı sənədli romanın "Günçıxandan günbatana (səfərlər)" hissəsindən*

1993-cü il aprel ayının sonlarında Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında (*2009-cu il aprelin 2-dən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası*) Amerika Birləşmiş Ştatlarına – ABŞ-a (*United States of America, USA*) səfər edəcək Azərbaycan media qrupu (təxminən 25 nəfər mətbuat, radio, televiziya və kino əməkdaşı) müəyyənləşdirilərkən, tərkibə mən də daxil edilmişdim. Həmin vaxt "Savalan" qəzetinin baş redaktoru idim. (Qeyd edim ki, bu, ABŞ-a ikinci səfərim olacaqdı. İlk səfər 1979-cu ildə "Azərbaycan gəncləri" qəzetinin redaktor müavini ikən SSRİ Jurnalistlər İttifaqının nümayəndə heyətinin tərkibində olmuşdu).

Səfər Azərbaycanla neft danışıqları aparan Böyük Britaniyanın Trans-Milli Neft - Qaz Şirkəti BP (*British Petroleum – Multinational Oil and Gas Company*) və ABŞ-ın Neft Şirkəti "Amoco"-nun (*Amoco Corporation –Amerikan Oil end Qas Compani*) iştirakı ilə həyata keçirilirdi və iki məqsəd daşıyırdı. BP və "Amoco"nun Amerikadakı müəssisələri ilə tanışlıq və çoxdan fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycandakı ictimai-siyasi vəziyyətə görə rəsmi açılışı



gecikdirilmiş Azərbaycanın ABŞ-dakı səfirliyinin rəsmi açılışında iştirak etmək. Səfirlik 1992-ci ilin mart ayında fəaliyyətə başlasa da, səfir noyabr ayında təyin edilmişdi.

Mayın 4-də Vaşinqtona (Washington) gəlişimizin ilk axşamında (bizi Bob`un başçılığı ilə, yəqin ki, erməni təhlükəsinə görə, mühafizəçilər dəstəsi qoruyurdu) Co rctaunda (Georgetown) restoranların birində, o zaman ABŞ-da tanınmış bir müğənninin iştirakı ilə, geniş ziyafət təşkil olundu. Ziyafətdə Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərin başçılığı ilə səfirliyin açılışına gəlmiş rəsmi nümayəndə heyəti – Prezidentin Mətbuat katibi Nəcəf Nəcəfov,



*Zaur Həsənov, Həsən Həsənov, Hafiz Paşayev, Robert Blanton*

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Sabit Bağırov və digərləri, həmçinin Azərbaycanın ABŞ-dakı ilk Fövqəladə və Səlahiyyətli səfiri Hafiz Paşayev iştirak edirdilər. "Amoco"nu şirkətin rəhbər işçilərindən olan, ABŞ Konqresində ABŞ-MDB Enerji Qrupu və Təsisatının üzvü Robert Blanton (*Robert Bob Lawrence Blanton – The Kongressional US-FSU Energy Caucus and İnstitute, Amoco*), BP-ni əməkdaşları təmsil edirdilər. Hər iki tərəfdən rəsmi çıxışlar oldu, Azərbaycan-Amerika dostluğu şərəfinə badələr qaldırıldı. (Sonrakı ilin yanvar ayında Azərbaycanın yeni hakimiyyəti ilə neft danışıqlarını davam etdirmək üçün Azərbaycana gələn Blanton artıq "Amoco" Neft Şirkətinin Avrasiya ölkələri üzrə sədri vəzifəsində idi. Bu sətirləri yazarkən maraqlandım və məlum oldu ki, Blanton 2011-ci ildə 81 yaşında vəfat etmişdir. Bioqrafiyasında onun Çin, Hindistan və Azərbaycanın neft sənayesinə töhfələr verdiyi qeyd olunub).

Vaşinqtonda olduğumuz günlərdə (4-8 may) müxtəlif restoranlarda verilən axşam yeməklərində Hafiz Paşayev və Robert Blanton da iştirak edirdilər. Hafiz Paşayevlə müvafiq rəsmi şəxslər, təbii ki, aqreman prosedurundan (qəbul edən ölkənin hökumətinin müəyyən şəxsin diplomatik nümayəndəliyin başçısı qismində təyinatına razılıq verməsi) tanış idilər. Lakin ürəyimdən keçirdi ki, səmimi, ünsiyyətcil adam olan Blanton da, BP-çilər də onu yaxından



*Hafiz Paşayev, Robert Blanton*

tanısınlar. Beləliklə, axşamların birində söz açıb, Hafiz Paşayevin Azərbaycanın böyük ədibi, Xalq yazıçısı Mir Cəlalın oğlu olduğunu, Mir Cəlal müəllimin Azərbaycan Dövlət Universitetində (*indiki BDU*) iki il mənə dərs dediyini, tələbələrin sevimli müəllimi olduğunu söylədim və Blantonun, BP əməkdaşlarının nəzərlərindən bu məlumatların onlar üçün yeni olduğunu sezdim...

Həmin günlərin birində Azərbaycan səfirliyinin rəsmi açılışında iştirak etdik. Çıxışlar oldu, İsa Qəmbər xanımı ilə təbrikləri qəbul etdi.

Tədbirdə Azərbaycan Respublikasının BMT yanında ilk daimi nümayəndəsi Həsən Həsənovla görüşüb, qısa söhbət etdik və dedi ki, hələ dəqiq deyil, imkan olsa, media qrupunu Nyu-Yorka (*New York*) dəvət edəcək.

Vaşinqtonda olduğumuz günlərdə Vaşinqtonun şərəfinə ucaldılmış, vaşinqtonluların "Karandaş" adlandırdığı abidədən başlanan şəhərlə tanışlıq turları təşkil olundu. Ən maraqlısı, təbii ki, Ağ evlə (*Amerika Birləşmiş Ştatları Prezidentinin daimi iş və yaşayış yeri; White House*) və Kapitolidə (*Capitol*) ABŞ Konqresi ilə (*Amerika Birləşmiş Ştatlarının ikipalatalı qanunverici dövlət hakimiyyət orqanı; United States Congress*) tanışlığımız oldu

Eyni zamanda, BP və "Amoco"nun müxtəlif ofislərində görüşlər, söhbətlər keçirdik.

Mayın 9-dan müxtəlif şəhərlərə səfərlərimiz başlandı. Vaşinqton ştatında (*Washington State*) BP-nin neft emalı zavodunda, Missisipi ştatındakı (*Mississippi State*) Paskaqula (*Pascagoula*) şəhəri yaxınlığında yerləşən zavodda və digər müəssisələrdə olduq. Ən maraqlısı, Atlantik okeanının (*Atlantic Ocean*) üzəri ilə vertolyotla BP-nin Meksika körfəzindəki (*Golfo de Mexico*) platformalarından birinə getməyimiz idi. Atlantik okeanında sanki gözəl bir kiçik ada – iş şəraiti, yaşayış şəraiti, istirahət şəraiti – 5*!

Səfərimiz sona çatmaq üzrə ikən xəbər verdilər ki, Həsən Həsənovun dəvəti ilə Nyu-Yorkda keçiriləcək Türk Günü Yürüşündə iştirak etmək üçün media qrupundan təxminən 10 nəfərlik bir heyət Nyu-Yorka yola düşməlidir. Digərləri isə proqram üzrə Hyustona (*Houston*) səfər edəcək. Beləliklə, Həsən Həsənovla geniş görüşümüz də elə Nyu-Yorkda, mayın 15-17-də baş verdi.



***Bob***

***

... Görkəmli dövlət xadimi Həsən Həsənovu tanımağım ötən əsrin 60-cı illərinin sonuna təsadüf edir. O, 1969-cu ildə ÜİLKGİ MK-da məsul təşkilatçı kimi işə başlayanda, mən Azərbaycan LKGİ MK-da Təbliğat və mədəni-kütləvi işlər şöbəsi müdirinin müavini idim. Şəxsi tanışlığım da elə həmin il mən Moskvada, ÜİLKGİ MK-da ezamiyyətdə olarkən baş verdi.

1971-ci ildə Həsən Həsənov Azərbaycan KP MK-da təlimatçı təyin olundu, sonra bir neçə il ərzində bölmə müdiri və şöbə müdirinin müavini vəzifələrində çalışdı. O zaman və elə sonralar da Azərbaycanın ictimai-siyasi mühitində elə bir dövr idi ki, respublikanı idarə edən baş qərargah kimi Azərbaycan KP MK işçiləri ziyalılar arasında yaxşı tanınırdı. Mən də 1973-cü ilin yayında komsomolun Mərkəzi Komitəsindən "Azərbaycan gəncləri" qəzetinə redaktor müavini göndərilmişdim. Həmin dövrdə mətbuatın nəinki rəhbər işçiləri,




*Əlirza Balayev*



*Azərbaycan-Amerika dostluğunun şərəfinə*



*"Amoco" nun ofisində*

həmçinin aparıcı müxbirləri respublikada tanınırdı. Yəni, qarşılıqlı məlumatlılıq mühiti var idi.

1975-ci ilin dekabrında Həsən Həsənov 26 Bakı komissarı (indiki Səbail) rayonunun partiya komitəsinin birinci katib təyin olundu. Həmin dövrdə belə vəzifələr MK aparatında çalışan gənc kadrların ümdə arzusu idi. Bu vəzifələr sınaq meydanı kimi ya daha yüksək vəzifələrə yol açır, ya da "son dayanacaq" olurdu.

26 Bakı komissarı rayonu Bakının mərkəzi rayonu hesab edilirdi və bir mühüm xüsusiyyəti də bu idi ki, elm, mədəniyyət, təhsil və yaradıcılıq təsisatlarının yerləşdiyi rayon idi və birinci katibdən bütün bu sahələrə rəhbərlik edə bilmək üçün savad, bilik, intellekt və erudisiya tələb olunurdu. Elə tezliklə məlum oldu ki, bu keyfiyyətlər və səriştəli idarəetmə bacarığı Həsən Həsənovda kifayət qədərdir.

Həsən Həsənov alışdığımızdan fərqli bir partiya işçisi kimi diqqəti cəlb etdi və bu sonrakı vəzifələrdə də özünü get-gedə daha qabarıq göstərməyə başladı. Bu fərq bir çox cəhətləri özündə ehtiva edirdi: Azərbaycan və rus dillərində səlis-rəvan danışıq, milli ruhun aydın nəzərə çarpması, qərarların qəbulunda mühitin yol verə biləcəyi müstəqillikdən maksimum və bəzən artıqlaması ilə istifadə, ədaləti və düzlüyü qorumaq, özünə güvənmək və s. Xarizma deyilən şəxsi cəzb etmə keyfiyyəti də bunlara əlavə olunmalıdır.

Və nəticədə daha yüksək vəzifələr: Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP MK-nın ideologiya; tikinti; iqtisadiyyat üzrə katibi, Nazirlər Sovetinin sədri və Baş nazir.

Həsən Həsənovun Gəncədəki fəaliyyəti isə xüsusilə əlamətdar idi. Bu barədə çox yazılıb. Təkcə onu qeyd edim ki, həmin illərdə o, Azərbaycan ziyalılarının dərin hüsn-rəğbətini qazanmış dövlət xadimi idi. Həsən Həsənovun ideologiya üzrə katib olduğu illərdə (1981-1983) mən də redaksiyada çalışırdım və mətbuata da isti münasibətini yaxşı xatırlayıram.



*Corc Vaşinqtonun abidəsi önündə*



*"Amoco"nun müəssisəsində*



1992-ci ilin aprel ayında Həsən Həsənov Nyu-Yorkda BMT yanında Azərbaycanın daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfiri təyin edildi və bu, Azərbaycan üçün uğurlu oldu. Eyni zamanda, sanki tale də bu səfəri hazırlamışdı ki, BMT-nin Təhlükəsizlik Şurasının məşhur "Dörd Qətnamə"si Azərbaycan rəhbərliyinin səyi ilə yanaşı, Həsən Həsənovun da fövqəladə bacarığı ilə qəbul edilsin və onun adı ilə tarixə düşsün. Birinci və ikinci qətnamə Həsən Həsənovun daimi nümayəndə olduğu vaxt, üçüncü və dördüncü qətnamə isə Azərbaycan Respublikasının Xarici İşlər Naziri kimi işə başlamasının ilk üç ayından da az bir müddətdə qəbul edilmişdi.

Nazirlikdən sonra Həsən Həsənov elmi fəaliyyətlə məşğul olaraq, tarix elmləri doktoru kimi Azərbaycan





*Həsən Həsənovun Nyu-Yorkdakı iş otağında*

tarixşünaslığında öz elmi istiqamətini yaratdı. Ədəbi-bədii yaradıcılıqla da məşğul oldu. Sonra yenidən diplomatik iş: Macarıstan və Polşada Azərbaycan Respublikasının Fövqəladə və səlahiyyətli səfiri. Hazırda Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvüdür. Bir sözlə, Həsən Həsənov müasir Azərbaycan dövlətçiliyinin nadir simalarından biridir!

***



*Türk Günü Yürüşündə: Həsən Həsənov Azərbaycan jurnalistləri ilə*



*Yürüşdən sonra stadionda*

Mayın 15-də Nyu-Yorkun Laquvardiya (Laguardia) hava limanından birbaşa Türk Günü Yürüşünün keçiriləcəyi Medison prospektinə (Madison avenue) gəldik.

... Qeyd edim ki, Türk Günü Yürüşü ilk dəfə 1981-ci ildə ABŞ-da erməni terror təşkilatı ASALA tərəfindən türk diplomatlarının şəhid edilməsinə cavab olaraq təşkil olunub. Sonrakı illərdə ənənə halını alan Türk Günü Yürüşü hazırda da hər il may-iyun günlərinin birində keçirilir. Bəzən Türk Günü və Festivalı da adlanır. Əvvəlki illərdə ABŞ-dakı türk cəmiyyətləri tərəfindən keçirilən yürüş sonrakı illərdə və hazırda türk dövlətlərinin Amerikadakı diaspor cəmiyyətlərinin fəal iştirakı ilə təşkil edilir. Adətən, Manhettendə (Manhattan) Medison prospektindən başlayan yürüş BMT-nin mənzil-qərargahı qarşısında sona çatır və Amerikadakı türk xalqları cəmiyyətlərinin birlik və bərabərlik rəmzi kimi dəyərləndirilir. Qeyd edim ki, Türk Günü Yürüşü hazırda da davam edir və Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi də, adətən, tədbirə qatılır.

Medison prospektində Həsən Həsənov bizi qarşıladı və yürüş başlandı. Onun biz jurnalistlərlə birlikdə ilk cərgədə necə şövqlə addımladığını indi də xatırlayıram. Təxminən 150-200 erməni yürüşə mane olmaq üçün toplaşmışdı. Lakin polis onların qarşısına sədd çəkib, yaxına buraxmırdı. Onlar bizə "şüar"larını yağdırırdılar.

Yürüş BMT-nin yaxınlığındakı Daq Hammarşeld (*Dag Hammarskjöld*) meydanında başa çatdı və burada mitinq başladı, müxtəlif türk xalqlarının rəsmi nümayəndələri çıxış etdilər. Mitinqdən sonra yaxınlıqdakı stadionda türk xalqlarının mahnı və rəqslərindən ibarət konsertə baxdıq.

Ertəsi gün Nyu-Yorkun görməli yerlərinə ekskursiyada olduq. Manhettendə "Əkiz qüllələr" də adlanan Dünya Ticarət Mərkəzinin (*World Trade Center*) 110 mərtəbəli qüllələrini 2001-ci il sentyabrın 11-də əl-Qaidə terror təşkilatı tərəfindən qaçırılmış təyyarə ilə uçurulmasından əvvəl ikinci dəfə görmək mənə nəsib oldu. "Görmək" sözü burada şərtidir. Belə hündür binaları, həmçinin Çikaqodakı (*Chicago*) 108 mərtəbəli Sirs Qülləsini (*Sears Tower*, indi Uillis Qülləsi – *Willis Tower*) yalnız yarıyadək görmək mümkündür, yuxarısı daim çis-duman içində gö-

rünməz olur.

Nyu-Yorkla tanışlıqdan sonra şəhər ətrafındakı gözəl bir mənzərəli yerdə olduq və bizə qəribə təsir bağışlayan yapon restoranı "Qaşo"da (*Gasho*) nahar etdik. Bu qəribəliyi fotoda görmək mümkündür.

Axşam "Hilton" (Hilton) hotelinin Triənon Balrum (*Trianon Ballroom*) zalında qəbul keçirildi. Saat 12-dən sonra Brodveydə (Broadway) gecə gəzintisi çox maraqlı idi.

Sonrakı gün Həsən Həsənovun müşayiəti ilə BMT iqamətgahı ilə tanış olduq. Sonra Həsən Həsənov bizi öz iş otağında qəbul etdi. İşinin mahiyyəti və xüsusiyyətləri haqqında məlumat verdi, Azərbaycan diasporu hələ təşkilatlanmadığına görə çətinliklərdən danışdı. Həmin görüşdə onun fotosunu da lentə aldım. Sonda daimi nümayəndəliyə üçgünlük səfərdə bizim üçün təşkil etdiyi zəngin proqrama görə dərin təşəkkürümüzü bildirdik və mayın 17-də Hyustondan qayıdan qrupla birləşib, Con Kennedi (*Jhon Kennedi*) aeroportundan İstanbula, ertəsi günsə vətənə qayıtdıq. Nyu-York günləri ilə daha da unudulmaz olan Amerika səfəri başa çatdı...



*Yapon restoranı "Qaşo"da: Həsən Həsənov, Zaur Həsənov, Əlirza Balayev*

**P.S. Həmin günlərdə, vaxt tapdıqca Həsən Həsənovla ikilikdə söhbət edirdik. Hiss edirdim ki, bu söhbətlər onun üçün də maraqlıdır. Belə geniş söhbətlərimizin birini onun razılığı ilə lentə alıb, Bakıya döndükdən sonra baş məsləhətçisi olduğum "Haqq söz" qəzetində (imzam "Əlirza Məmmədoğlu" gedirdi) dərc etdim və qəzetin surətini Azərinforum vasitəsilə ona göndərdim.**

**Həmin söhbətdən bəzi hissələrin maraq doğuracağını nəzərə alaraq, oxuculara təqdim edirəm:**




# VAHİD SİYASƏT KONSEPSİYASI OLMALIDIR

*BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi, səfir Həsən Həsənovla müxbirimiz Əlirza Məmmədoğlunun müsahibəsi*

"**Ə.M.** – Hörmətli səfir! Bu diplomatik rütbə ilə BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifəsində fəaliyyətə başladığınız andan, demək olar ki, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibənin doğurduğu problemlərin BMT səviyyəsində həlli ilə məşğulsunuz. Vaxtilə Dağlıq Qarabağ məsələsinin beynəlmiləlləşməsi haqlı olaraq Ermənistanın və onun arxasında duran qüvvələrin uzaqgörən hiyləgər bir siyasəti kimi qiymətləndirilir və Azərbaycanın ərazi bütövlüyü üçün bir təhlükə hesab edilirdi. Yəqin ki, rəsmi dairələrdə və ictimaiyyət arasında geniş yayılmış "Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili problemidir və o Azərbaycan tərəfindən həll ediləcəkdir" şüarını hamımız yaxşı xatırlayırıq. Ancaq belə olmadı. Bu gün artıq məsələnin danışıqlar yolu ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həllinə nail olmaq Azərbaycan dövlətinin dəfələrlə bəyan edilmiş mövqeyidir. Lakin necə həllinə nail olmaq? Bu mərhələdə də, əvvəlki kimi, Azərbaycan yox, düşmən niyyətinin gerçəkləşməsi təhlükəsi olduqca realdır. Bu fikrimi söhbətimizin gedişində daha açıq şərh etməyə çalışacağam. İndi isə, ümumiyyətlə, problemə münasibətinizi bildirməyi, eyni zamanda, hamımıza yaxşı məlum olduğu kimi, Təhlükəsizlik Şurasının sizin böyük səyiniz nəticəsində qəbul edilmiş və Nyu-Yorkda diplomatiyamızın böyük qələbəsi olan 822 nömrəli qətnamədən söz açmağınızı xahiş edirəm.

**H.H.** – İndi dünya dövlətləri elə bir səviyyəyə çatıblar ki, demək olar onlardan heç birisinin daxili siyasi problemi yalnız onun öz daxili məsələsi olaraq qalmır. Dünya dövlətləri belə hesab edirlər ki, hər hansı bir dövlətin daxili siyasi gərginliyi onlara da təsir göstərə bilər. Buna görə də, həmin məsələ istər-istəməz beynəlmiləlləşir və dünya dövlətləri ona bu və ya digər şəkildə öz münasibətlərini bildirirlər. O ki qaldı Azərbaycanla Ermənistan arasındakı münasibətə, sözsüz ki, bu, dövlətlərarası münasibətdir və başqa dövlətlərin buna qarışmasının heç bir qorxusu yoxdur və biz bundan heç bir nigarançılıq çəkməməliyik. Əgər biz məsələyə Təhlükəsizlik Şurasında baxılmasını istəyiriksə, bu o deməkdir ki, Təhlükəsizlik Şurasının üzvləri olan on beş dövləti rəy söyləməyə, qərar çıxarmağa dəvət edirik, taleyimizi onlara tapşırırıq. Sözümün nəticəsi odur ki, müxtəlif dövlətlərin Azərbaycan-Ermənistan münaqişəsinə müdaxilə etməsi müasir siyasi həyatın adi qaydası kimi qəbul olunmalıdır.

822-ci qətnaməyə gəlincə, o çox böyük ziddiyyətlər şəraitində hazırlanıb qəbul edilmişdir.

... Ermənistan Dağlıq Qarabağ ərazisinə iddiasını gizlətmir, lakin buna siyasi üsullarla nail olmaq istədiyini bildirir və Dağlıq Qarabağı, həmçinin Azərbaycanın başqa ərazilərini zəbt etdiyini heç cür boynuna almır və bütün müharibənin Dağlıq Qarabağ özünümüdafiə qüv-

vələri tərəfindən aparıldığını iddia edir. Ermənistanın təcavüzkar olduğunu sübuta yetirə biləcək dəlillər isə Təhlükəsizlik Şurasının nəzərincə kifayət qədər deyildir. Ermənistanın təcavüzkar kimi olmasa da, təcavüzə qatılan bir dövlət kimi adının qətnaməyə salınmasına böyük səylər hesabına nail olduq. Ancaq bu bizə imkan verir ki, sonrakı mərhələlərdə onun bilavasitə təcavüzkar dövlət olduğunu Təhlükəsizlik Şurasında sübuta yetirək.

**Ə. M.** – Söhbətimizin əvvəlinə qayıdıb, münaqişənin ATƏM (*1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı – ATƏT–* **redaksiyanın qeydi**) çərçivəsində həlli (*6 dekabr 1994-cü il ildən Minsk qrupu* – **redaksiyanın qeydi**) ilə əlaqədar mülahizələrimi bir az da açıqlamaq istəyirəm. Yəni, necə həlli? Məlum olduğu kimi, Ermənistan beş il əvvəl Dağlıq Qarabağın Azərbaycan tərkibində muxtariyyət statusu ilə razılaşmayaraq, onun ilhaq edilməsi, yaxud müstəqil respublika olması uğrunda müharibəyə başlamışdır. Azərbaycan dövləti bundan sonra Dağlıq Qarabağın inzibati muxtariyyət statusunu ləğv etmiş, Azərbaycan ərazisində yaşayan ermənilərə yalnız milli muxtariyyət təmin ediləcəyini bildirmişdir. Belə olan halda, sual doğur: inzibati muxtariyyətlə razılaşmayıb, Ermənistana birləşdirmək, yaxud müstəqil Dağlıq Qarabağ Respublikası yaratmaq uğrunda müharibəyə başlayan tərəf milli muxtariyyət statusu ilə, yaxud danışıqlar zamanı bərpa edilsə belə, inzibati muxtariyyətlə necə razılaşa bilər? Bu, məntiqə ziddir. Yaxud, sualın əks tərəfi: ərazisinin bir qarışını belə güzəştə getməyəcəyini elan edən Azərbaycan öz ərazisinin böyük bir hissəsinin ilhaq edilməsi, yaxud orada müstəqil respublika yaradılması ilə necə razılaşa bilər? Bu da məntiqə ziddir. Bəs onda Minsk qrupunda münaqişə necə həll oluna bilər?

Belə olan halda, Azərbaycanda Yaxın Şərq problemlərinə bənzər bir vəziyyətin yaranması göz qabağındadır. Yəni, sülh danışıqları yolu ilə Azərbaycan ərazisinin 10 il, 20 il və daha uzun müddət işğal altında qalması vəziyyəti... Mənə belə gəlir ki, neçə il əvvəl cızılan planın da məqsədi kimi elə bu vəziyyət düşünülüb. Bu proqnoza necə baxırsınız?

**H.H.** – Söz yox, xalqımızı hazırlamalıyıq ki, uzun müddətli bir proses gedir. Bunun tarixi əsası vardır. Qarabağı zəbt etmək ideyasını ermənilər on səkkizinci əsrin əvvəllərindən bu günə gətirib çıxarmışlar... Ermənilər heç vaxt torpaqlarımızı işğal etmək niyyətlərindən əl çəkməyəcəklər və buna görə də, xalqımız uzun müddətli müharibəyə, uzun müddətli mübarizəyə hazır olmalıdır. O ki qaldı sülh danışıqlarına... Başqa yol yoxdu axı... Axtarışlar davam etdirilməlidir. Ancaq əgər Azərbaycan qüdrətli bir dövlət olsa, güclü ordusu, zəngin iqtisadiyyatı, qüvvətli xarici siyasəti olsa, sülh danışıqlarında da sözünün kəsəri artar.

**Ə.M.** – Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi üçün nə tövsiyə edərdiniz?

**H.H.** – Azərbaycan müharibə apardığına görə bizim bütün siyasət qollarımız bir-birilə bağlı olmalıdır, yəni daxili siyasət, xarici siyasət, iqtisadi siyasət bir-birilə sıx əlaqələndirilməlidir. Bunlar müstəqil xətlər olmamalıdır. Üçü də bir düyündə bağlanmış vahid siyasət olmalıdır. Biz gənc dövlət olduğumuza görə, ola bilsin ki, hərə ayrı-ayrılıqda öz yolunu axtarır. Bu, belə olmamalıdır. Yəni dövlətin siyasəti anarxiya yolu ilə, hər kəsin öz istəyi ilə qurulmamalıdır. Dövlətin özünün vahid konsepsiyası olmalıdır. Və bu konsepsiya daxilində müxtəlif dövlətlər qrupları ilə əlaqələrimizi tənzimləyən ayrı-ayrı proqramlar hazırlanıb həyata keçirilməlidir.

**Ə.M.** – İqtisadiyyatı uzun müddət və müxtəlif səviyyələrdə idarə edən – məlumdur ki, partiya komitələrinin birinci katibləri bilavasitə iqtisadiyyatla da məşğul olurdular – doxsanıncı ilin yanvarından sonra isə iki ildən çox müddət ərzində Azərbaycan hökumətinə başçılıq edən bir şəxs kimi nə söyləyə bilərsiniz?

**H.H.** – Bazar iqtisadiyyatı ideyasını Azərbaycanda doxsanıncı ilin aprel ayında mən irəli sürmüşəm. O zaman Nazirlər Sovetində 250 nəfər rəhbər işçinin iştirakı ilə böyük müşavirə keçirdik. İki saat yarım sinədən məruzə etdim. Qeyd etdim ki, Azərbaycanın bazar iqtisadiyyatına keçməkdən başqa yolu yoxdur. Bazar iqtisadiyyatına keçidin çətinliyini də görürdük. Həmin müşavirədə söylədiyim bir cümləni həmkarlarım sonralar tez-tez təkrar edərdilər. Demişdim ki, Azərbaycanın hal-hazırda bazar iqtisadiyyatına keçməsi üzə bilməyən adamı çaya yox, gölə yox, okeana atmağa bənzər. Amma mən inanırdım ki, Azərbaycan iqtisadiyyatı okeanı da üzüb, o taya çıxmağa imkan verəcək.

Daha sonra, bildiyiniz kimi, may ayında biznes-konqres keçirmək haqqında qərar qəbul elədik. Xatırlayıram ki, Moskva bunu çox mənfi qarşılamışdı. Ancaq biz SSRİ-nin tezliklə dağılmasını gözləməsək də, Mərkəzin artıq zəiflədiyini bilirdik və buna görə də, tədricən iqtisadiyyatımızın asılı vəziyyətini azaldan addımlar atmağı lazım bilirdik. 90-cı ilin sentyabrında Türkiyəyə gedib, iqtisadiyyatımızın sərbəst bazar istiqamətində inkişafı ilə əlaqədar müqavilə bağladım.

Doxsanıncı ilin oktyabrında keçirilən biznes-konqresə 450 şirkətdən 700 biznesmen gəldi. Konqresdə mən bir daha elan etdim ki, Azərbaycanın sərbəst bazar iqtisadiyyatına keçməkdən başqa yolu yoxdur. 91-ci ilin yanvar ayında mən Azərbaycan parlamentinə 24 qərar layihəsi göndərdim. Daha sonra yenə 24 qərar layihəsi göndərdim. Əgər həmin 48 qərar o zaman qəbul olunsaydı, bu gün bəlkə də bazar iqtisadiyyatına keçmiş vəziyyətdə olardıq. Çox təəssüf edirəm ki, həmin layihələr o zaman qəbul edilmədi... Söz yox ki, indiki baxımdan tam kamil layihələr deyildi. Ancaq o zaman qəbul edilsəydi, sonralar onları təkmilləşdirmək olardı. Beləliklə də, demək istərdim ki, mən özümü Azərbaycanda bazar iqtisadiyyatının banisi hesab edirəm. Düzdür, adam özü özü haqda bani olduğunu söyləməz. Ancaq tarix vardır, mən bunu faktlara əsaslanıb deyirəm.

**Ə. M.** – Təbii ki, mən parlamentə qərar layihələri göndərməyinizdən xəbərdar deyiləm və sizinlə razılaşmaq lazımdır ki, iqtisadiyyatımızın inkişagı üçün müəyyən zaman itirmişik. Və indi, görünür, islahatları daha sürətlə həyata keçirməliyik.

**H.H.** – Təbii ki, belədir və bu zaman belə bir cəhətə diqqət yetirilməlidir ki, bizim ayrıca daxili iqtisadi siyasətimiz yox, bir vahid iqtisadi siyasətimiz olmalıdır. Bazar iqtisadiyyatının başqa adı sərbəst iqtisadiyyatdır, yəni tam sərbəstlik olanda müvəffəqiyyətə nail olacağıq. İqtisadiyyatımızı nə qədər dustaq şəkildə saxlasaq, nailiyyətlərimiz o qədər az olacaq. Amma sərbəstlik heç də anarxiya deyildir. Sərbəst iqtisadi siyasətin özünün də qanuni çərçivəsi vardır və bu çərçivədə hərəkət etmək lazımdır.

... Müsahibədən razı qaldınızmı?

**Ə.M.** – Bir diplomatla söhbət etdiyimi nəzərə almaq şərti ilə razıyam və təşəkkürümü bildirirəm."

**Nyu-York, 16 may 1993-cü il**

**"Haqq söz" qəzeti,**
*25 may-1iyun 1993-cü il*